**Azərbaycan Dövlət İqtisad Universiteti - 90 il**

Azərbaycan Dövlət İqtisad Universitetinin 90-illik yubileyi ictimai həyatın bütün səviyyələrində qeyri-müəyyənliklərin gucləndiyi bir dövrə təsadüf edir. Korona-virüs pendamiyası ilə mübari zənin ugurlu nəticələrindən asılı olmayaraq “post-korona-virus” ortamında da həmin qeyri-müəy yənliklərin qenişlənməsi ehtimalı böyükdür. Belə şəraitdə İqtisad Universiteti kimi çağdaş təhsil infrastrukturuna və informasiya texnologiyaları ilə yaradıcı çalışmaq qabliyyətli tələbə-müəllim kollektivinə malik universitetlər qarşısında daha mürəkkəb, “universitet missiyasını” yenidən və adekvat dəyərləndirmək, mənimsəmək və reallaşdırmaq vəzifələri qabarıq şəkildə üzə çıxır. Düşünürəm ki, bunu İqtisad Universiteti ilə az-cox bağlılığı olan hər kəs gələcəyimizin “olmazsa-olmazı” prinsipi şəkilində qəbul edər.

Azərbaycan Dövlət İqtisad Universiteti banqladeşli Nobelçi Məhəmməd Yunusla başlayaraq, türkiyəli Aziz Səncər və digərləri ilə davam etdirərək Nobel Laureatları ilə əməkdaşlıq etmək ənənələri yaratmaq yolunda təşəbbüslər göstərməklə ölkəmizin xüsusilə gənc yaradıcı nəsilində özünəgüvənin aşılanmasında tarixi əhəmiyyətli xidmətlər göstərmişdir. Nobel Mükafatı arzusunda olan hər bir elmi araşdırmaçı, əlbəttə, həmin mükafatı almır, ama nobel mükafatçılarının formalaşdırdığı araşdırma metod və üsullarına bu və ya digər dərəcədə yiyələnməlidir. İqtisad Universiteti üçün burada tələbəsindən də öyrənmək istəyən və bunu fəxrlə gerçəkləşdirən “müəllim modelinin” dayanıqlaşması yollarından biri yatır. Bu əsasda İqtisad Universiteti Azərbaycanın bağımsızlıq strategiyasının ardıcıl reallaşmasına töhvələr vermiş olar.

Azərbaycan Dövlət İqtisad Universiteti Azərbaycan cəmiyyətinin daxili, yerli və uluslararası səviyyələrdə bütünsəlləşməsi istiqamətlərində çeşidli addımlar atır. Bunun dönməzliyinə nail olunması və nüfuzlu səhfəyə gətirilməsi çeşidli qurum və fərdlərin çağdaş çalışma mədəniyyəti nin aktuallaşdırılması ilə bərabər özünü ləyaqətli ifadə etməsi ilə bağlıdır.

Azərbaycan Dövlət İqtisad Universitetinə guvənilən və sayılan təhsil mərkəzi olmasını arzu edirəm.

***Hörmətlə, professor Raqib Quliyev***